Mərasimdə təhsil naziri Mikayıl Cabbarov Bakı Slavyan Universitetinin professoru Lidiya Qranovskayanın Azərbaycanda yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması, eyni zamanda rus dilinin tədqiqi sahəsindəki xidmətlərindən danışıb və ona fəaliyyətində uğurlar arzulayıb.

Lidiya Qranovskaya onun pedaqoji və tədqiqatçılıq fəaliyyətinə verilmiş yüksək qiymətə görə dövlət başçısına təşəkkürünü bildirib.

Sonda nazir “Əməkdar elm xadimi” medalını və vəsiqəsini Lidiya Qranovskayaya təqdim edib.